RESPUBLİKA 15 avqust 2015-ci il

493

# Mənalı ömrün tarixi



Neft kimyası Azərbaycanda böyük müvəffəqiyyətlə inkişaf etdirilmişdir. Bu sahədə böyük xidməti olan şəxslərdən biri də dünyaşöhrətli alim akademik Soltan Cəfər oğlu Mehdiyevdir. Kimyaçı alim Rəsul Rəxşanlının "Akademik Soltan Mehdiyev" kitabı ilə tanışlıqdan da bunu aydın görmək olar. Kitabda akademikin iş yoldaşları, yetişdirdiyi alimlər, tələbələr, habelə qohumları və yaxınları ilə görüşlərdən, söhbətlərdən, xatirələrdən əldə edilmiş maraqlı təəssüratlar vardır. Görkəmli alim həyatının böyük dövrünü əhatə edən şəkillər də diqqəti cəlb edir. Çünki onların sırasında Azərbaycan Dövlət Universiteti kimya fakültəsinin 1939-cu il buraxılış qrupunun, sovet elm nümayəndələrinin Bağdadda Neft Tədqiqatları İnstitutunun yaradılmasına köməklik göstərmiş alimlərimizdən ibarət qrupun şəkilləri xüsusi yer tutur. Həmin şəkillər faktiki olaraq ilk dəfə bu kitab vasitəsilə ictimaiyyətə təqdim edilir.

Soltan Mehdiyev 1914-cü il dekabrın 2-də Cənubi Qafqazın gözəl guşəsində – İsmayıllı rayonunun qədim və füsunkar Lahıc kəndində anadan olmuşdur. İlk təhsilini Lahıc məktəbində almışdır. Sonra Bakı Pedaqoji Məktəbində təhsilini davam etdirmiş, müəllimlik etmişdir. Daha sonra Azərbaycan Dövlət Universitetində kimya ixtisası üzrə ali təhsilə yiyələnmişdir. O, tanınmış şəxslər - Sadıq Hüseynovun, Yusif Məmmədəliyevin, SSRİ Elmlər Akademiyasının akademiki Lopuxinin və müxbir üzvü Krasusskinin tələbəsi olmuşdur.

Böyük Vətən Müharibəsi ərəfəsində təhsilini başa vuran gənc Soltan Mehdiyev elmi işlərlə məşğul olmağa başlayır. Onun həmin ərəfədəki və müharibə illərindəki tədqiqatları ölkəmizin müdafiə qüdrətinin möhkəmləndirilməsinə yönəldilir.

Müharibə nəticəsində viran qalmış ölkə təsərrüfatını bərpa etmək üçün ölkənin aromatik karbohidrogenlərə böyük ehtiyacı vardı. Onları isə neftin tərkibindəki aşağı molekullu karbohidrogenlərdən almaq mümkün idi. Soltan Mehdiyevin bu istiqamətdəki tədqiqatları da səmərəli olur. İllər bir-birini əvəz etdikcə, görkəmli alimin uğurları da çoxalır, sorağı dünyanı dolaşır. Səsi neçə-neçə ölkələrdən gəlir, beynəlxalq konfranslardan, simpoziumlardan eşidilir. Soltan Mehdiyev elmi işlə yanaşı, həm də ali məktəblərdə dərs demiş, Elmlər Akademiyasında və onun elmi-tədqiqat institutlarında elmi təşkilatçılıqla məşğul olmuşdur. Alimlik istedadı, elmi təşkilatçılıq bacarığı, müəllimlik məharəti onu hamıya sevdirmişdir.

O, gərgin və məhsuldar işləmişdir. Elmlər doktoru, professor olmuş, akademik seçilmişdir. Respublikamızın Elmlər Akademiyasında məsul vəzifədə - kimya elmləri bölməsinin akademik katibi vəzifəsində çalışmışdır. Xarici ölkələrə dəvətlər almış, Avropa ölkələrində məruzələr oxumuş, Bağdaddakı Elmi-Tədqiqat Neft İnstitutunda neft-kimya istiqamətində elmi işlər təşkil etmiş və yerli mütəxəssislərə elmi-metodiki yardım göstərmişdir.

Alimin gərgin və məhsuldar əməyi diplomlara, mükafatlara layiq görülmüş, orden və medallarla təltif edilmişdir. Akademikin yetişdirdiyi gənc alimlər dəstəsi püxtələşir və hər biri onun geniş əhatəli elmi işinin müəyyən istiqamətini uğurla davam etdirirlər. Bütün bunlar kitabda elə qələmə alınıb ki, oxucunu dərhal özünə cəlb edir, görkəmli alim haqqında onda zəngin və maraqlı təəsüratlar yaradır.

Sanballı monoqrafik kitabda alimin yaşadığı mənalı və zəngin həyatın bütün dövrləri, onun elmə necə gəlməsi, əldə etdiyi uğurları, layiq görüldüyü elmi dərəcələr, fəxri adlar, həmçinin xarici ölkələrə səfərləri açıqlanır, uzun onilliklər ərzində onun apardığı uğurlu elmi-tədqiqatlar, nəticələrinin və ixtiralarının elmi zənginləşdirməsi, sənaye və yarımsənaye miqyaslı qurğularda tətbiqi, istehsal edilmiş məhsullar sadalanır.




Akademik Soltan Mehdiyev haqqında kitabın maraqlı və oxunaqlı alınmasının daha bir səbəbi də müəllifin əsərin qəhrəmanı ilə şəxsi tanışlığı, onların onilliklər ərzindəki görüşlərindən xoş xatirələrdir. Əsər geniş oxucu kütləsinin böyük marağına səbəb olmaq üçün kifayət qədər zəngindir.

**Hikmət HAQVERDİLİ,**
**Əməkdar müəllim,**
**İsmayıllı rayonundakı**
**Lahıc qəsəbə**
**tam orta məktəbinin direktoru.**